*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 161-169* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.161*

# QARABAĞ ƏDƏBİ MÜHİTİ: TƏŞƏKKÜLÜ VƏ FORMALAŞMASI

**Zülfiyyə Məmmədhüseynova**
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: zulfiyye.memmedhuseynova@gmail.com

**Annotasiya.** Vahid bir xalqın ədəbi təfəkkürünün, obrazlı düşüncəsinin ümumi, ortaq məhsulu olan, onun milli-tipoloji xüsusiyyətlərindən tutmuş psixologiyası, həyat tərzi, prioritetləri, milli dəyərləri və adət-ənənələrinin toplandığı, məskunlaşdığı coğrafiyanın relyefindən, iqlimindən, suyundan, havasından, insanların hətta zahiri və mənəvi keyfiyyətlərindən saç düzümünədək ən incə detalların belə əks olunduğu canlı orqanizmə bənzəyən söz sənəti həm də xalqın ayrı-ayrı fərdlərinin yaradıcılığının birləşdiyi bir dünyadır. Ona görə də ədəbiyyatın bütöv halda dərk edilməsində böyük əhəmiyyət kəsb edən amillərdən olan nəsillər arasındakı əlaqələrin və bölgələrdə yaranan ədəbiyyatların öyrənilməsi diqqətdən yayınmamalıdır.
Bütöv Azərbaycan ədəbiyyatının formalaşmasında tarixən çox geniş coğrafiyaya malik vətənimizin hər bir bölgəsinin özünəməxsus yeri və rolu vardır. Bu baxımdan Qarabağ ədəbi mühitinin araşdırılması da maraqlı və önəmli detalların, ədəbi nəsillər və mühitlər arasındakı münasibətlərin, təsir və qarşılıqlı zənginləşmə məsələlərinin aydınlaşdırılmasına vəsilə olduğu üçün aktual və önəmlidir.
**Açar sözlər:** Qarabağ, tarix, ədəbi-mədəni mühit, elm, tarixi şəxsiyyətlər, ədəbi təsir

**Məqalə tarixçəsi:** göndərilib – 08.06.2023; qəbul edilib – 23.06.2023

# THE LITERARY ENVIRONMENT OF KARABAKH: FOUNDATION AND FORMATION

**Zulfiyya Mammadhuseynova**
Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: zulfiyye.memmedhuseynova@gmail.com

**Abstract.** The art of word is a general and common product of the literary and figurative thinking of a united people, and also is a world where the creativity of individual personalities of a nation is united. It resembles a living organism that reflects their national typological features, psychology, life style, priorities, geography where national values and traditions are collected and inhabited, external and spiritual qualities, the finest details, from clothing to hairstyles. Therefore, the study of relations between generations that is one of the important factors in understanding literature completely and literature emerging in the regions should not be overlooked.
Each region of our homeland with a very wide geography has its own place and role in the formation of all Azerbaijani literature. From this point of view, the study of the literary environment of Karabakh is relevant and important, because it conduces to clarify the issues such as interesting and important details, relations between literary generations and environments, and influence and mutual enrichment.
**Keywords:** Karabakh, history, literary and cultural environment, science, historical personalities, literary influence

**Article history:** received – 08.06.2023; accepted − 23.06.2023

## Giriş / *Introduction*

Ümummilli lider Heydər Əliyev deyirdi ki, "Qarabağsız Azərbaycan yoxdur!" Ulu öndərin bu sözlərini vətənimizin dilbər guşəsi olan Qarabağda yaranıb inkişaf etmiş söz sənətimizə, ədəbiyyatımıza da tam mənası ilə aid etmək olar: Qarabağ ədəbi-mədəni mühitini, Qarabağda yaşayıb-yaratmış ədiblərimizi və onların ədəbi irsini öyrənmədən bütövlükdə Azərbaycan ədəbiyyatını öyrənmək, bilmək mümkün deyildir.

Filologiya elmləri doktoru Qurban Bayramov haqlı olaraq ədəbi mühitin öyrənilməsinə mövcud coğrafiyanın sərhədlərinin "müəyyənləşdirilməsi" ilə başlamağı lazım bilir: "*Qarabağ ərazisi tarixi hadisələrin gedişatından asılı olaraq zaman-zaman dəyişsə də, Qarabağ ərazisi Araz və Kür qovuşandan (iki çayarası) Xuan qalasınadək, indiki Qırmızı körpü ətrafından Cermuxa qədər, Göyçə gölü sərhədlərində, o biri yandan isə Sisakan, Gorus, Mehri-Zəngəzur dağ silsiləsi boyunca Qarabağa daxil olmuş, qədim Aran ərazisini əhatə etmişdir"* [3, s.121].

## Əsas hissə / *Main Part*

Şübhəsiz ki, bütün bölgələrdə olduğu kimi, dünya mədəniyyətinə dahi sənətkarlar, ölməz sənət əsərləri, bədii-poetik örnəklər bəxş etmiş, bizə gəlib çatmış ilk yazılı ədəbi nümunələrdən biri – VII əsr şairi Dəvdəkin Alban hökmdarı Cavanşirin ölümünə yazdığı mərsiyə-qəsidə olan Qarabağ ədəbi mühitinin də ilk örnəkləri Azərbaycan folkloru, şifahi xalq yaradıcılığı ilə bağlıdır. Qarabağ folkloru çox zəngin fonda malikdir. Burada Azərbaycan şifahi xalq ədəbiyyatının, demək olar ki, bütün janrlarında nümunələrinə rast gəlirik. *"Bununla belə, bayatı, nağıl, aşıq şeirləri, müxtəlif məzmunlu rəvayətlər və s. toplanmış nümunələrin arasında üstünlük təşkil edir"* [21, s.191] və xalqın şifahi bədii təxəyyülünün ifadəsi olan bu örnəklərdə onun tarixi, təbiəti, məişəti, təsərrüfat fəaliyyəti, ailə münasibətləri, sevgi duyğuları və s. tərənnüm olunmuşdur. Qarabağda yaranmış folklor nümunələri alimlərimiz tərəfindən toplanıb nəşr edilmiş və tariximizin bir parçası olan bu örnəklər üzərində sanballı araşdırmalar aparılmışdır. Hələ 1933-cü ildə Ceyhun Hacıbəylinin "Qarabağın dialekt və folkloru (Qafqaz Azərbaycanı)" əsəri 1933-cü ildə Parisdə "Asiya jurnalı"nda dərc olunmuşdu [1]. 2012-ci ildə AMEA Folklor İnstitutunun (layihə rəhbəri akademik Muxtar İmanov) hazırlayıb nəşr etdirdiyi "Qarabağ: folklor da bir tarixdir" (I kitab. Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri) kitabı isə son illərdə bu sahədə görülmüş ən dəyərli və böyük zəhmət tələb edən bir işin bəhrəsidir [9].

XII əsrə qədərki ərəbdilli yazılı Azərbaycan ədəbiyyatının nümayəndələri arasında da Qarabağ əsilli söz-elm adamlarının, hədisşünasların yaradıcılıq və fəaliyyətləri mühüm yer tutur. Malik Mahmudov onlardan bəzilərinin adlarını çəkərək haqlarında qısa bilgi verməmişdir. Məsələn, alim yazır: *"Qasan ləqəbi ilə məşhur olan Əbu-l-Qasim Bərdəi etibarlı mühəddis kimi tanınmışdır"* [15, s.78].

Daha sonrakı əsrlərdə də həyat və yaradıcılığı bu və ya digər şəkildə bu coğrafiya ilə bağlı olan şairlər və söz biliciləri Azərbaycan ədəbiyyatı və fəlsəfi fikrində özlərinə məxsus iz qoymuşlar. XII əsr Azərbaycan farsdilli ədəbiyyatının tanınmış nümayəndələrindən, Xaqani Şirvaninin şagirdi, Eldəgizlər sarayının məşhur şairi olmuş və Azərbaycan Atabəylərinə mədhiyyələr həsr etmiş Mücirəddin Beyləqani, XIV əsr şairi Tuti Abdulla Qarabaği, XIV-XV əsrlərin dilçi alim və şairi Sədullah Bərdəi, XV əsr şairi Şeyx İbrahim Gülşəni Bərdəi, XVI əsrdə yaşamış filosof, ilahiyyatçı alim, məntiq, fəlsəfə və

"Qurani-Kərim"in təfsirinə dair əsərlərin müəllifi Mihuyiddin Məhəmməd Bərdəi, XVI-XVII əsrlər filosofu və şairi, məşhur "Həft cinan" ("Yeddi bağ") əsərində *"insan haqqında mükəmməl və sistemli konsepsiyasını"* (Məhəmmədi) irəli sürən Yusif ibn Məhəmmədcan Qarabaği, XVI əsr aşıq-şairi Aşıq Qurbani onların içərisində ən məşhurlarıdır.

"Səfəvilərin son dövrü (ingilis tarixşünaslığında)" monoqrafiyasının müəllifi tarixçi alim Rəhimə Dadaşova Yusif Məhəmmədcan Qarabağinin fəlsəfə, məntiqə dair ərəb və fars dillərində əsərlər yazdığını qeyd edir: *"Xanəgah", "Atomun şərhi haqqında traktat", "Anlaşılmayan məsələləri bərtərəf etmək haqqında tamamlayıcı təfsirlər", "Elmin tərifi haqqında traktat", "Nur saraylarının şərhi olan hur mənzərələrinə haşiyə", "Vahid olan haqqında traktat" və s. əsər müəllifi olan Yusif Qarabağinin fəlsəfi görüşlərində panteizmlə yanaşı, neoplatonizm və Şərq aristotelizmi əlaqəli şəkildə birləşmişdi"* [4, s.310].

Adlarını sadaladığımız şairlərdən Gülşəni Bərdəi və Aşıq Qurbaninin ədəbi irsi daha tam halda bizə gəlib çatmış, nəşr edilərək həm geniş ictimaiyyətə, həm də elmi mühitə təqdim olunmuş, yaradıcılıqlarına dair tədqiqat əsərləri yazılmışdır.

Azərbaycan sufi ədəbiyyatının görkəmli nümayəndəsi Şeyx İbrahim Gülşəni Bərdəinin lirik şeirlər "Divan"ını əlyazma nüsxələri əsasında transfonoliterasiya edərək geniş ön sözlə nəşrə hazırlayan professor Azadə Musayeva şair haqqında yazır: *"Gülşəni Bərdəinin klassik Şərq ədəbiyyatına, xalq yaradıcılığına, folklora bağlılığını, özünəməxsus üslubu olduğunu "Divan"ına daxil edilmiş şeirləri aydın göstərməkdədir. Şair məşhur "Xəlvətiyyə" sufi təriqətinin "Gülşəniyyə" qolunun qurucusu – şeyxi olduğundan yaradıcılığında təriqətlə bağlı şeirlər vardır. Yaradıcılığının məzmunu ardıcıl nəzərdən keçirilərkən filosof-şair kimi onun sufizmin mütərəqqi qoluna mənsub olduğu duyulur"* [18, s.15].

Gülşəni Bərdəinin "Divan"ında diqqəti cəlb edən cəhətlərdən birincisi qəzəllərinin irihəcmli olması, şeirlərində dünyagörüşü, mənsub olduğu təriqətin əksi, zamanının fəlsəfi elmlərinə vaqifliyi, ustadı Dədə Ömər Rövşəniyə sonsuz ehtiramı və sevgisi, dilinin zənginliyi, poetik istedadının yüksək səviyyədə olmasıdır. Gülşəni Bərdəinin şeir dilində zamanın tələblərinə uyğun olaraq ərəb-fars sözləri çoxluq təşkil etsə də, qədim türk sözləri də qorunub saxlanılmışdır və şairin əsərləri dil tariximizin öyrənilməsi üçün də qiymətli mənbələrdir.

*Mənsuri-eşq olub necə derəm "ənəl eşq"i eşit,*
*Gərçi kim anı deyənün eşqünə yeri dar imiş.*
[11, s.150]

Məlumdur ki, Mənsur divan şeirində "danışdığı üçün həlak olmağ"ın simvollaşmış obrazıdır. Şair, əvvəla, Mənsurun "ənəl həqq" deyərkən öz eşqini bəyan etdiyinin şərhini verir, həm də "ənəl eşq" (eşq mənəm), – deyərək özünün də bu yolun yolçusu olduğunu bildirir. Şeirdə bəzən inkar təsdiqin ən bariz təcəssümüdür, bəzən sual cavabdan daha artıq bəyandır, bəzən isə məchul məlumdan daha artıq bəlli olur.

Gülşəninin şeirlərinin cümlə quruluşu, poetik inversiyalar olduqca maraqlıdır və poeziya dilinin incəliklərini bariz ifadə edir.

*Görən Məcnun sifət, ey Leyli, halum*
*Ğəmündən der əcəb sevdayə düşmüş.*
*Verəldən Gülşəni eşqinə canın,*
*Rəvani "Cənnətül-Məva"yə düşmüş.* [11, s.152]

İlk beytdə şair müqayisə edir, təşbih yaradır, sevgilisinin eşqindən, qəmini çəkməkdən düşdüyü halını klassik şeirdə eşqin və aşiqliyin rəmzi olan Məcnunun halına bənzədir. Burada fikir çox məharətlə şeirin qəlibinə uyğunlaşdırılmış, inversiya mənaya xüsusi təsir gücü vermişdir. Fikri nəqli cümlə şəklində yazdıqda bu, daha aydın görünür: "Ey Leyli, qəmindən Məcnun sifət (Məcnuna bənzər) halımı görən deyir ki, nə əcaib eşqə düşmüşdür bu". İkinci beytdə şair sevgilisini "bəlli edir". O elə bir sevgilidir ki, (təbii ki, Tanrı nəzərdə tutulur) Gülşəni canını ona təslim edəndən ruhu "Cənnətül-Məva"ya – əbədi cənnətə düşmüşdür.

Bir məqamı da qeyd edək: Gülşəni Bərdəinin bir şair-filosof kimi yetişdiyi dövr həyatının Qarabağdakı illərinə təsadüf etmir. Lakin şairin doğma yurdunu tərk edərkən 14-15 yaşlarında olduğu təxmin edilir. Deməli, ilk və orta təhsili-

ni də məhz burada almış, təbii ki, dünyagörüşü burada formalaşmağa başlamış, elm öyrənməyə həvəsi də məhz bu torpaqda baş qaldırmışdır. Bu isə dolayısı ilə həmin dövrdə Bərdədə, Qarabağda ədəbi-elmi mühitin güclü olduğunu göstərir.

XV-XVI əsrlər aşıq şeirinin görkəmli nümayəndəsi Aşıq Qurbani Diri kəndində (indiki Cəbrayıl rayonu) dünyaya gəlmiş, Səfəvilər sarayında yaşayıb-yaratmış, Şah İsmayılla dostluq münasibətində olmuş və bu səbəbdən də yaradıcılığında sarayla, dövlət məsələləri ilə bağlı motiv və məqamlar vardır. Aşıq Qurbaninin əsərlərini toplayaraq ön söz, izahlar və qeydlərlə nəşrə hazırlayan Qəzənfər Kazımov yazır ki, Qurbaninin "*Şah İsmayılın müridlərini döyüşqabağı cuşa gətirmək üçün saz çalıb-oxuduğu barədə rəvayətlər ...mövcuddur. Lakin onun şeirlərinin ahəng və əzəməti, ciddi sosial-fəlsəfi məzmunu şairin "toy aşığı" kimi təsəvvür edilməsinə imkan vermir. Ərəb əlifbasından istifadə ustalığı, bu əlifbadakı hərflər əsasında yaratdığı qıfılbəndlər, dərin elmi-fəlsəfi və dini məzmunlu cahannmaməsi, cinas qafiyələri, dini və tarixi hadisələrə bələdolma dərəcəsi, fars dilində şeirlər yazması və s. göstərir ki, Qurbani savadlı bir şəxs olmuş, ərəb və fars dillərini bilmiş, mükəmməl təhsil almışdır"* [12, s.21-22].

Dövrün aşıq poeziyasının ən səciyyəvi xüsusiyyətlərini – mövzu, ideya istiqamətlərini, fəlsəfi-irfani motivləri, təriqət düşüncələrini, forma, şəkil rəngarəngliyini özündə əks etdirən Aşıq Qurbani yaradıcılığı çağdaşı olduğu yüzilliyin – mədəniyyət, ədəbiyyat və sənətin yüksək vüsətli inkişaf əsrinin səsi idi. Aşıq şairin şeirləri elə öz dövründən başlayaraq dillər əzbəri olmuş və onların əsasında "Qurbani" dastanı yaranmışdır. Onun şəxsiyyəti və yaradıcılığı haqqında Salman Mümtaz, Məhəmməd Hüseyn Təhmasib, Həmid Araslı, Araz Dadaşzadə Mirzə İbrahimov, Sədnik Paşayev, Qəzənfər Kazımov və başqa alimlərimiz məlumat vermiş, şeirləri və "Qurbani" dastanı Əhliman Axundov tərəfindən tərtib edilərək nəşr olunmuşdur.

Aşıq Qurbani şeirlərinin mövzu əhatəsi genişdir: aşıq şeirinin müxtəlif janrlarındakı şeirlərində ictimai ədalətsizliyə etiraz, zülmə qarşı haqq səsi, doğma yerlərin təbiətinin vəsfi, sufi-irfani eşq, qızılbaşlığın ictimai-fəlsəfi ideyaları, dünyəvi sevgi və s. motivlər onun poeziyasında sadə, xalq üçün anlaşılan dildə olmaqla yanaşı, həm də yüksək poetik istedadla qələmə alınmışdır.

*Əlif qəddin, bey qamətin, sey saçın,*
*Necə bənzər hərf içində bir dala.*
*Hər muyuva min gövhərdi tay saçın,*
*Qəvvas olan yek dəryada bir dala.* [10, s.99]

İşlətdiyi təşbih və istiarələr şairin klassik poetika elminə dərindən vaqif olduğunu, cinas rədiflər şairlik istedadının elmlə mükəmmələşdirildiyini göstərir. Qurbani dal (د) +a və dal(maq)+a sözlərini həm məna gözəlliyini saxlayaraq, həm də forma qanunları çərçivəsində işlədərək mükəmməl sənət nümunəsi yaratmışdır: sevgilinin qəddi ərəb qrafikasında düz qamətin (əlif bəzən də vahidlik, təklik, tohid rəmzi kimi işlədilir) rəmzi olan əlif (ا), qəddi be (ب), yığılmış saçları isə dal (د) hərflərinə bənzədilir. Sevgilinin saçları gövhər dəryasıdır, bu dəryaya dalmaq (baş vurmaq) üçün qəvvas olmaq gərəkdir.

Qarabağda aşıq sənətinə böyük maraq və ehtiram olmuş və aşıq sənəti Azərbaycanın bu bölgəsində çox geniş inkişaf etmiş, ədəbi məktəb yaratmışdır. Bu məktəbin XVII əsr nümayəndələrindən biri də Sarı Aşıq olmuşdur. Haqqında ilk məlumata Əndəlib Qaracadağinin təzkirəsində rast gəldiyimiz Sarı Aşıq, əsasən, bayatı ustası kimi məşhurlaşmışdır. Salman Mümtaz, Əhliman Axundov, Sədnik Paşayev, Hüseyn Kürdoğlu şairin yaradıclığına dair araşdırmalar aparmış, əsərlərini nəşr etdirmişlər. Professor Məhərrəm Qasımlı Sarı Aşığın bayatılarının məzmun və sənətkarlıq keyfiyyətlərindən bəhs edərkən yazır: *"Sarı Aşıq təkcə folklorda yox, bütövlükdə Azərbaycan ədəbiyyatı tarixində səmimi, həzin və poetik incəliyə məxsus bayatıları ilə bənzərsiz və təkrarsız sənətkar kimi ucalır. Azərbaycan türkcəsinin hansı qüdrətə və imkanlara sahib olduğunu əyani görmək üçün, əslində, təkcə Sarı Aşıq bayatılarına baş vurmaq yetərlidir"* [8, s.21].

*Mən Aşıq, yara bağlar,*
*Yar meylin yara bağlar.*
*Yaramı yar bağlasın,*
*Yar yaxşı yara bağlar.*

*Mən Aşıq, ağzındayam,*
*Aləmin ağzındayam.*
*Əslim Qarabağlıdır,*
*Məzməzək ağzındayam.* [20, s.112]

Tədqiqatçıların da yazdıqları kimi, Sarı Aşığın sadə xalq dilində yazılmış kövrək duyğulu şeirlərinin əksəriyyəti anonimləşmiş və xalq bayatılarına qarışmışdır.

XVII-XVIII əsrlər Gəncə-Qarabağ bəylərbəyiləri olmuş, eyni zamanda da klassik üslubda munis şeirlər yazmış Ziyadi Qarabaği və Müsahib Gəncəvinin (hər ikisi Xurşidbanu Natəvanın qohumu olmuşdur) də ədəbi yaradıcılığı Qarabağ ədəbi mühiti ilə bağlı olmuşdur.

XVIII əsrlər Azərbaycan ədəbiyyatının yeni mərhələyə qədəm qoyduğu dövrdür. Lakin klassik ədəbi ənənələr də hələ çox güclü idi. Odur ki, XVIII əsr Azərbaycan ədəbiyyatının əsas xüsusiyyəti klassik ənənələrlə xalq şeirinin bir-birinə nüfuz edərək, bir-birini qarşılıqlı zənginləşdirərək yanaşı yürüməsidir. Səbinə Əhmədova da yazır ki, *"...XIX əsrdə Şuşa şəhərində keçirilən ədəbi məclislərdə ən çox Füzulidən danışılır, o, təhlil olunur və onun şeirlərinə nəzirələr, təxmislər yazılır"* [6, s.32]. Bu mərhələnin əsas əlamətlərini müəyyənləşdirən və "çiynində daşıyan", XVIII əsr Azərbaycan ədəbiyyatı dedikdə ilk yada düşən ədəbi irs – Molla Pənah Vaqif yaradıcılığı məhz Qarabağ ədəbi mühiti ilə bağlıdır. Vaqif poeziyası Azərbaycanda realist ədəbiyyatın bütün ünsürləri və elementləri ilə təzahürünü tapan ilk bədii yaradıcılıq faktıdır. Bu poeziya yalnız ədəbiyyat hadisəsi deyil, həmçinin Azərbaycan xalqının milli adət-ənənələri, həyat-məişət tərzi, ailə münasibətləri, əxlaqı, etik davranış qaydaları, hətta qadınlarımızın milli geyimləri, bəzək əşyaları, saç düzümü haqqında zəngin və qiymətli məlumatları ehtiva edən, bədii, obrazlı sətirlər arasında milli etnoqrafiyaya dair bilgilərin saxlandığı əvəzsiz mənbələrdir. Vaqif öz realist təsvirləri ilə sanki İslam dininin qəbulundan sonra incəsənət əsərlərində insan surətinin təsvirinə qoyulan yasağı aradan qaldırır. Həm də bir ictimai xadim, Qarabağ xanlığının vəziri olan Vaqifin yaradıcılığında dövrünün ictimai-siyasi hadisələrinə şair münasibəti, ictimai ədalətsizliyə, sosial bərabərsizliyə qarşı güclü bir etiraz, bir hayqırtı vardır. Şairin məşhur "Görmədim" müxəmməsi ictimai realist poeziyanın ən gözəl nümunəsi hesab olunur. Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatında erkən realizm dövrü" məqaləsində yazır: *"Vaqifin məşhur "Görmədim" müxəmməsi ideya-bədii xüsusiyyətlərinə görə Azərbaycan realizminin möhkəm təməllərindən və mükəmməl örnəklərindən biridir. "Görmədim" şeiri Azərbaycan ədəbiyyatında erkən realizmin kulminasiya nöqtəsidir* [7, s.15]. Klassik lirikanın müxtəlif janrlarında – qəzəl, müxəmməs, müstəzad, müəşşər kimi şeir şəkillərində yüksək bədii sənətkarlıq nümunəsi olan əsərlər yaratmış Vaqifin Azərbaycan ədəbiyyatında ən böyük xidməti Şah İsmayıl Xətai və Məhəmməd Füzuli ilə başlayan Azərbaycan ədəbi dilinin milliləşdirilməsi missiyasını doğma ana dilində yaratdığı bənzərsiz poeziya ilə başa çatdırmasıdır. Şairin ilk tədqiqatçılarından olan fil.e.d. Araz Dadaşzadə Vaqifin Azərbaycan poeziyasındakı yerini belə dəyərləndirir: *"o,* (Vaqif – Z.M.) *xalq şeir forması olan heca vəzninin imkanlarını genişləndirmiş və onun yazılı ədəbiyyatda mövqeyini gücləndirmişdir. ...o, Azərbaycan dilinin saflaşmasında, bədii dilin təzə sözlər və tərkiblərlə zənginləşməsində çox mühüm rol oynamışdır. Vaqif doğma dilin bütün rəngarəngliyini, təravət və imkanlarını açıb aşkara çıxaran poeziyanın yaradıcısıdır"* [5, s.32]. Aşağıda Vaqif poeziyasından gətirdiyimiz parçalarda şair sanki bir rəssam fırçası ilə XVIII əsr Azərbaycan qadınının real, canlı portretini çəkmişdir:

*Al çarqatdan yaşmaq tutub çənəyə,*
*Simin yaraşdırıb zər nimtənəyə.*
*Deyildir bərabər heç kimsənəyə,*
*Xubların şahıdır şanü şövkətdə.* [22, s.24]

Və ya:

*Ətəkliyi altun, qəsabəsi zər,*
*Çəhrayı çarqatı qəddə bərabər,*
*Başında bərq vurur gün kimi zivər,*
*Onu görən düşə odlara gərək.*
*Əşrəfindən üzlük üzündə göyçək,*
*Boğazı altında sığallı birçək,*
*Qabaq belə bəyaz, yanaq lalə tək,*
*Göz ala gərəkdir, qaş qara gərək.* [22, s.46]

Portretdəki obraz: al (qırmızı) rəngli baş yaylığının ucunu ağzına doğru çəkib yaşmaqlanıb, köynəyinin yaxasına gümüşdən sancaq taxıb. ...Qızılı rəngdə ətək, qızılı-gümüşü rəngli yaxalıq, çəhrayı rəngli uzun baş örtüsü, saçı boğazının altında qıvrılıb, ağbəniz, yanaqları qızarmış, qaşları qara, gözləri ala Azərbaycan xanımı...

Lakin Vaqif qadının yalnız zahiri gözəlliyinin aşiqi olmamış, onun ədəb-ərkan gözləməsinə, nəzakət qaydalarına riayət etməsinə, xoş rəftarlı olmasına, haldan (sözdən, şeirdən) anlayan olmasına, gözəl, aydın danışa bilməsinə və bu kimi mənəvi keyfiyyətlərinə də böyük önəm verirdi. Həmid Araslı, Araz Dadaşzadə, İsa Həbibbəyli, Nizami Cəfərov, Buludxan Xəlilov, Mahirə Quliyeva və başqa alimlərimiz şairin həyat və yaradıcılığı haqqında monoqrafiya və kitablar yazmışlar.

Qeyd edək ki, Vaqiflə yaxın münasibətdə olmuş və uzun müddət Qarabağda yazıb-yaratmış Molla Vəli Vidadinin də Qarabağ ədəbi mühitinin inkişafına böyük təsiri olmuşdur.

Ümumiyyətlə, Qarabağ xanlığının ictimai-siyasi mövqeyi, ölkə həyatında oynadığı rol, apardığı daxili və xarici siyasət burada mədəni-ədəbi həyatın da inkişafına xüsusi təsir göstərmişdir. Xanlığının əhatə etdiyi coğrafiya da bu məsələdə öz rolunu oynamışdır. Qarabağ xanlığının tarixini ilkin qaynaqlar əsasında öyrənən Tofiq Mustafazadə də yazır ki: "*Azərbaycan xanlıqları içərisində Qarabağ xanlığı özünün maddi və insan ehtiyatlarına, habelə iqtisadi və hərbi qüdrətinə görə xüsusi mövqeyə malik idi"* [19, s.3].

Təqdirəlayiqdir ki, Azərbaycan tarixində çox mühüm rol oynamış bir dövlət qurumunun – Qarabağ xanlığının vəzirləri məhz elmli, bilikli insanlar arasından seçilmişlər. Əvvəl Pənahəli xanın, sonra isə İbrahimxəlil xanın sarayında xidmət etmiş şair Mirzə Vəli bəy Baharlı, "İran tarixi haqqında qısa icmal" (1815), "Qarabağ tarixi" (1847) əsərlərinin müəllifi Mirzə Camal Cavanşir Qarabaği də ayrı-ayrı dönəmlərdə Qarabağ xanlarının vəzirləri olmuşlar. XIX yüzillikdə Qarabağ tarixinə dair digər qiymətli əsərlər də qələmə alınmışdır və bu əsərlər indi də həm Azərbaycan tarixinin, həm də Qarabağ xanlığının tarixinin öyrənilməsində ilkin qaynaqlar kimi etibarlı mənbələrdən hesab olunur. Bu mənbələrdən Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si (1845), Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının siyasi vəziyyətinə dair (1747-ci ildən 1805-ci ilə qədər)" (1883-1884), Mirzə Yusif Qarabağinin (Nersesov) "Tarixi-Safi" (1855), Mirzə Rəhim Fənanın "Tarixi-Cədidi-Qarabağ", Baharlının (Mirzə Vəli Baharlının nəvəsi) "Əhvalati-Qarabağ" (1888), Rzaqulu bəy Mirzə Camalın "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" və s. əsərləri göstərmək olar.

XIX əsr Qarabağ ədəbi mühiti öz inkişaf vüsəti, bu torpaqlarda yetişən şairlərin həm kəmiyyətcə çoxluğu, həm də ümumi ədəbi prosesdə oynadıqları rol ilə diqqəti cəlb edir. "Təzkireyi-Nəvvab" tərtibçisi dosent Əkrəm Bağırov təzkirədə əsərlərindən nümunələr verilmiş şairlərin adlarını sadalayır: *"Təzkirə əsasən iki hissədən ibarətdir. Birinci hissədə Vaqif, Vidadi ...kimi 35, ikinci hissədə isə Natəvan, Mehdiqulu xan Vəfa, Fatma xanım Kəminə ... və başqalarından ibarət 56 şair haqda məlumat verilir, əsərlərindən nümunələr göstərilir. Bu şairlərin birinci qismi müəllifin zamanında artıq dünyasını dəyişmişdi. İkinci qismini isə Nəvvab yaxından tanıyırdı, onlarla şəxsi və ədəbi əlaqəsi var idi. Bu şairlər Nəvvabın müasirləri idilər"* [2, s.7]. Bu fakt XIX əsr Azərbaycan və həmçinin onun böyük bir qolu olan Qarabağ ədəbi mühiti haqqında (təzkirədə Qarabağ əsilli 100-dən çox şair haqqında məlumat vardır) əyani təsəvvür yaradır.

Molla Pənah Vaqifdən sonra, XVIII əsrin sonu, XIX əsrin birinci yarısında Qarabağda yaşayıb-yaratmış şairlər arasında Azərbaycan tənqidi-realist satirik şeirinin ən görkəmli nümayəndəsi Qarabağın məşhur Cavanşirlər nəslindən olan Qasım bəy Zakirdir. Zakirin yaşadığı illər Azərbaycanda rus çarizminin müstəmləkəçilik siyasətinin hökm sürdüyü dövrə təsadüf edir. Azərbaycan ədəbiyyatında daha çox satirik kimi tanınan, "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" və yaxud "İlan, Dəvə, Tısbağa", "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" və yaxud "Tısbağa, Qarğa, Kəsəyən, Ahu" kimi təmsilləri məşhur olan, klassik lirika və xalq ədəbiyyatı janrlarında yüksək sənətkarlıq

nümunəsi olan əsərlər qələmə alan Zakir mənzum məktubları və həcvlərində cəmiyyətin ictimai eyiblərini və sosial bəlalarını kəskin tənqid atəşinə tutmuşdur. Əsərləri hələ öz dövründən müasirlərinin diqqətini cəlb etmiş və şeirləri təzkirə və şeir antologiyalarına salınmış Zakirin həyatı və yaradıcılığının müxtəlif aspektləri Feyzulla Qasımzadə, Kamran Məmmədov, Süleyman Hüseynov, Sahib İbrahimli, Raqub Kərimov, Səbinə Əhmədova və başqa alimlər tərəfindən araşdırılmış, əsərləri nəşr olunmuşdur.

Qasım bəy Zakir yaradıcılığını ideya qaynaqları, mövzu axtarışları, janr və sənətkarlıq xüsusiyyətləri də daxil olmaqla dərindən araşdıran Sahib İbrahimli yazır: *"...şairin* (Zakirin – Z.M.) *realizmi bütövlükdə Azərbaycan realist ədəbiyyatının təşəkkül və inkişaf tarixində mühüm bir mərhələdir. Qasım bəy Zakir öz yaradıcılığı və sənətkar mövqeyi ilə həyat hadisələrinə münasibətin yeni prinsip və meyarlarını yaratdı. Bu isə onun böyük sənət yolunun ədəbi məktəb səviyyəsinə yüksəlməsinə səbəb oldu"* [14, s.350].

Raqib Kərimovun "Qasım bəy Zakir və müasirləri" kitabında isə adından da göründüyü kimi, şairin yaradıcılıq mühiti, müasirləri (Baba bəy Şakir, Nəva, Mirzə Fətəli Axundzadə) ilə münasibətləri, yazışmaları, şeirləşmələri, bir-birlərinə nəzirə yazmaları geniş araşdırılmışdır.

Qarabağ ədəbi mühitində şair və təzkirə müəllifi olmaqla yanaşı, musiqişünas, rəssam, xəttat, nəqqaş, astronom, tarixçi kimi də tanınmış, Qarabağ əhalisi arasında xüsusi nüfuza sahib Mir Möhsün Nəvvab imzasının xüsusi yeri vardır. Qarabağ ədəbi-bədii və mədəni mühitindən danışarkən Nəvvabın yaratdığı və rəhbərlik etdiyi "Məclisi-fəramuşan" adlı ədəbi və "Məclisi-xanəndə" adlı musiqi məclislərinin fəaliyyətindən bəhs etməmək mümkün deyildir.

Bir çox elm və sənət sahələrinə dərindən yiyələnmiş Nəvvab musiqiyə, ədəbiyyatşünaslığın nəzəri məsələlərinə, tarixə, rəssamlığa dair əsərlərin müəllifidir. Şairin lirik şeirlər "Divan"ını və "Məzlumnamə" əsərini ərəb əlifbasından (Arif Ramazanovla birlikdə) transfonoliterasiya edən Əli Məmmədbağıroğlu yazır: *"Mir Möhsün Nəvvabın yaradıcılığının digər sahələri kimi, bədii yaradıcılığı da olduqca rəngarəng və zəngindir. O, klassik şeirin, demək olar ki, bütün janrlarında qələmini sınamışdır. ..."Divan"a şairin lirik, ictimai-siyasi məzmunlu şeirləri ilə yanaşı, müasiri olan Natəvan, Həsənəli xan Qaradaği, Mirzə Ələsgər Növrəs... və sairlərinin ona yazdıqları şeirlərə cavabı daxil edilmişdir"* [16, s.8].

Şərq mədəniyyətində çox böyük əhəmiyyəti olan və qədim tarixi ənənəyə malik təzkirəçilik XIX əsrdə də davam edirdi və Qarabağ ədəbi mühiti təzkirəçiliyin yaşadılması baxımından da digər bölgələrimizdən fərqlənir. XIX əsrdə burada klassik Şərq şairlərinin, xüsusən də Azərbaycanın hər guşəsindən olan şairlərin əsərlərindən nümunələrin toplandığı və bu gün ədəbiyyat tariximizin öyrənilməsi üçün etibarlı ilkin mənbələr kimi qiymətli qaynaqlar olan təzkirələrin əksəriyyəti məhz Qarabağda araya-ərsəyə gəlmişdir. Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Mirzə Yusif Qarabağinin "Məcmueyi-Vaqif və müasirini-digər", Həsənəli Xan Qaradağinin "Xan Qaradaği təzkirəsi", Mir Mehdi Xəzaninin "Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirləri – Xəyalat məcmuəsi" və s. bunlara misal göstərə bilərik.

Həyat və yaradıclıqları XIX əsrin ikinci yarısı və XX yüzilliyin birinci yarısına təsadüf edən və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuş, "Müsibəti-Fəxrəddin" əsəri ilə Azərbaycan dramaturgiyası və ədəbiyyatında faciə janrının əsasını qoymuş Nəcəf bəy Vəzirov və yazıçı, publisist, ictimai xadim, bütün bunlarla yanaşı, həm də "Leyli və Məcnun" operasının ilk dirijoru, Azərbaycanda Teatr Şurasının təsisçisi və ilk rəhbəri, Azərbaycan ədəbiyyatında Nəriman Nərimanovun "Nadir şah" (1898) tarixi dramından sonra tarixi dram janrında əsər ("Ağa Məhəmməd şah Qacar") yazmış Əbdürrəhim bəy Haqverdiyev də məhz "Qarabağ ədəbi-mədəni mühitinin Azərbaycan və dünya ədəbiyyatına bəxş etdiyi görkəmli simalardır. Daha sonralar isə bu torpaqda Üzeyir Hacıbəyov, Ceyhun Hacıbəyov, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov, Firidun bəy Köçərli kimi dünyaca məşhur ədəbiyyat və mədəniyyət xadimləri yetişmişdir.

**Nəticə / *Conclusion***

Qarabağ ədəbi-mədəni mühitinin qısa icmal halında nəzərdən keçirilən təşəkkül və inkişaf tarixi göstərir ki, Azərbaycan mədəniyyəti və ədəbiyyatının inkişafında vətənimizin hər guşəsi kimi, bu ulu Oğuz yurdunun da misilsiz rolu olmuşdur.

**Ədəbiyyat / *References***


1. Abbaslı, Sönməz. Ceyhun Hacıbəylinin Qarabağ folkloru ilə bağlı əsəri. https://www.xalqcebhesi.az/news/culture/13765.html
2. Bağırov, Əkrəm. Ön söz. / Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab. Tərtib edib çapa hazırlayan Əkrəm Bağırov. – Bakı: Elm, 2018.
3. Bayramov, Qurban. Qarabağ-Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər. / AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ. 2021, № 2 (268).
4. Dadaşova, Rəhimə. Səfəvilərin son dövrü (ingilis tarixşünaslığında). – Bakı: Nurlan, 2003.
5. Dadaşzadə, Araz. Molla Pənah Vaqif (həyat və yaradıcılığı haqqında oçerk). – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1968.
6. Əhmədova, Səbinə. Qarabağ ədəbi-mədəni mühiti (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri). – Bakı: Ecoprint, 2020.
7. Həbibbəyli, İsa. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü. / “525-ci qəzet”, 2017. 21 oktyabr.
8. Qasımlı, Məhərrəm. Bayatılarımızın heyrət heykəli: Sarı Aşıq / “Ədəbiyyat qəzeti”. 5 sentyabr 2015.
9. Qarabağ: folklor da bir tarixdir. I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Tərtib edənlər: İlkin Rüstəmzadə, Zəfər Fərhadov. – Bakı: Elm və təhsil, 2012.
10. Qurbani. Əsərləri. Toplayanı, ön söz, izah və qeydlərin müəllifi Qəzənfər Kazımov. – Bakı: Şərq-Qərb, 2006.
11. Gülşəni, Şeyx İbrahim Bərdəi. Divan. Əlyazma qaynaqları əsasında nəşrə hazırlayan Azadə Musayeva. – Bakı: Avrasiya press, 2006.
12. Kazımov, Qəzənfər. Ön söz. / Qurbani. Əsərləri. – Bakı: Şərq-Qərb, 2006.
13. Kərimov, Raqub. Qasım bəy Zakir və müasirləri. – Bakı: Elm və təhsil, 2013.
14. İbrahimli, Sahib. Turançılıq işığında. (Seçilmiş əsərləri. IV cild). – Bakı: Elm və təhsil, 2020.
15. Mahmudov, Malik. Ərəbcə yazmış azərbaycanlı şair və alimlər (VII-XII əsrlər). – Bakı: Şərq-Qərb, 2006.
16. Məmmədbağıroğlu, Əli. Mir Möhsün Nəvvab və onun türkcə Divanı. / Mir Möhsün Nəvvab. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2006.
17. Məhəmmədi, Məsiağa. Yusif Qarabaği və onun “Yeddi bağ” əsəri. / http://mesiha.blogspot.com/2019/02/yusif-qarabagi-v-onun-yeddi-bag-sri.html
18. Musayeva, Azadə. Ön söz. / Şeyx İbrahim Gülşəni Bərdəi. Divan. Əlyazma qaynaqları əsasında nəşrə hazırlayan Azadə Musayeva. – Bakı: Avrasiya press, 2006.
19. Mustafazadə, Tofiq. Qarabağ xanlığı. Qarabağ xanlığı. – Bakı: Sabah, 2009.
20. Sarı Aşıq. Gül dəftəri. Toplayanı və tərtib edəni: İlham Qəhrəman. – Bakı: Adiloğlu, 2011.
21. Süleymanova, Ləman. Qarabağ folkloru. / Motif Akademi Halkbilimi Dergisi. 2011-1 (Ocak-Haziran) (Azerbaycan Özel Sayısı-I).
22. Vaqif, Molla Pənah. Əsərləri. Tərtib edən və ön sözün müəllifi Həmid Araslı. – Bakı: Şərq-Qərb, 2004.

# КАРАБАХСКАЯ ЛИТЕРАТУРНАЯ СРЕДА: СТАНОВЛЕНИЕ И ФОРМИРОВАНИЕ

**Зульфия Мамедгусейнова**
Институт фольклора НАНА. Азербайджан.
E-mail: zulfiyye.memmedhuseynova@gmail.com

**Резюме.** Словесное искусство, будучи всеобщим продуктом литературного воображения, образного мышления целого народа, начиная от национально-типологической характеристики, до психологии, образа жизни, приоритетов, сохранённых национальных ценностей, обычаев и традиций, географического рельефа обитания, климата, воды, воздуха, также отражает внешние и внутренние качества людей, от предметов одежды до укладки волос, освещает творчество отдельных личностей и неразрывную связь с литературами локальных местностей и являет собой похожий на живой организм целый мир, служащий выражению тончайших оттенков, постоянного обновления и самоочищения. В статье не осталось без внимания изучение связей между литературными поколениями на местах как один из значимых факторов постижения литературы в целом. В формировании всей азербайджанской литературы играет роль и своеобразное географическое место каждого исторического региона нашей обширной родины. Поэтому исследование локальной литературной среды имеет большое значение для изучения истории нашей литературы. И с этой точки зрения очень важно и актуально исследование Карабахской литературной среды средствами интересных и значимых деталей, взаимоотношений литературных поколений разных периодов, вопросов влияния и взаимообогащения.

**Ключевые слова:** Карабах, история, литературно-культурная среда, наука, исторические личности, литературное влияние